

"Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var".

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 3 fevral 2024-cü il №8 (2819) https://mod.gov.az Qiymətı 30 qəpik


## Prezident İlham Əliyev Azərbaycan Gəncləri Günü münasibətilə paylaşım edib




*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2 Fevral - Azərbaycan Gəncləri Günü münasibətilə sosial şəbəkə hesablarında paylaşım edib.*

*AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev paylaşımında qeyd edib: "Bizim gənclər artıq müzəffər xalqın nümayəndələri kimi böyüyəcəklər".*

## Birinci vitse-prezident Mehriban Əliyeva Azərbaycan Gəncləri Günü münasibətilə paylaşım edib




*Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva 2 Fevral - Azərbaycan Gəncləri Günü münasibətilə rəsmi instaqram səhifəsində paylaşım edib.*

*AZƏRTAC xəbər verir ki, Azərbaycan gənclərinə təbriklərini çatdıran Mehriban xanım Əliyeva paylaşımında qeyd edib: "Hər bir Azərbaycan gəncinə möhkəm cansağlığı, tükənməz enerji, firavanlıq, bütün təşəbbüslərində uğurlar diləyirəm!".*

# Prezident İlham Əliyev Parlamentlərarası İttifaqın Baş katibini qəbul edib



*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 1-də Parlamentlərarası İttifaqın Baş katibi Martin Çunqonqu qəbul edib.*

AZƏRTAC xəbər verir ki, Parlamentlərarası İttifaqın Baş katibi Martin Çunqonq Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin təmin olunması münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırıb.

Prezident İlham Əliyev təbriklərə görə təşəkkürünü bildirib, bunun Azərbaycan xalqı və dövləti üçün tarixi məqam olduğunu qeyd edib, bu yeni şəraitin regionda sülhün və sabitliyin gücləndirilməsi üçün imkanlar yaratdığını vurğulayıb.

Dövlətimizin başçısı deyib ki, Minsk qrupu 28 il ərzində münaqişənin həlli prosesi ilə məşğul olsa da heç bir nəticə əldə edilmədi, Azərbaycan torpaqları işğaldan azad olunmadı, məcburi köçkünlərin geri qayıtması təmin edilmədi. Azərbaycan tərəfi isə torpaqları işğal altında olan zaman haqlı şəkildə Minsk qrupunun üzv dövlətlərini Ermənistana təzyiq göstərmək, ona müvafiq sanksiyalar tətbiq etmək barədə təkliflər irəli sürdüyü halda, o vaxt Minsk qrupu tərəfindən bu istiqamətdə heç bir addım atılmadı.

Prezident İlham Əliyev diqqətə çatdırıb ki, 2020-ci ildə 44 günlük Vətən müharibəsi başa çatandan sonra Azərbaycan regionda sülh gündəliyinin təşəbbüskarı olaraq Ermənistanla sülh müqaviləsinin imzalanması təklifi ilə çıxış edib. Amma Ermənistan tərəfindən buna adekvat reaksiya verilmədi. Ona görə də Azərbaycan sülh müqaviləsinin əsaslarını təşkil edən beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq 5 prinsip irəli sürüb ki, bunun əsasında da sülh müqaviləsi üzrə danışıqlar prosesinin təşəbbüskarı Azərbaycan olub.

Dövlətimizin başçısı 2020-ci ildə 44 günlük Vətən müharibəsi başa çatandan sonra üçtərəfli Bəyanat çərçivəsində Ermənistanın üzərinə götürdüyü bir sıra öhdəliklərini yerinə yetirmədiyini, son 3 il ərzində Azərbaycanın Qarabağ bölgəsində separatizmi maliyyə, hərbi və digər vasitələrlə dəstəkləməkdə davam etdiyini bildirib.

Azərbaycan Prezidenti ötən il sentyabrın 2-də Ermənistan rəhbərliyinin qondarma "Dağlıq Qarabağ respublikası"nın "müstəqilliyi" münasibətilə göndərdiyi təbrikin, həmçinin sentyabrın 9-da keçirilmiş dırnaqarası "prezident seçkiləri"nin sülh prosesinə ciddi zərbə vurduğunu, Azərbaycanın özünün ərazi bütövlüyünü və suverenliyini təmin etmək üçün antiterror tədbirləri keçirməli olduğunu vurğulayıb.

Dövlətimizin başçısı bildirib ki, Azərbaycan ilə Ermənistan arasında artıq defakto sülh mövcuddur və iki ölkənin sərhədində bir neçə aydır sülh şəraiti hökm sürür. Amma bu prosesin məntiqi sonluğa çatdırılması üçün sülh müqaviləsi imzalanmalı və Ermənistanın Azərbaycana qarşı ərazi iddialarına son qoyulmalıdır.

Prezident İlham Əliyev bu xüsusda qeyd edib ki, Ermənistanın müstəqillik haqqında Bəyannaməsində Azərbaycanın Qarabağ bölgəsinin Ermənistanla birləşdirilməsinə və Azərbaycanın ərazi bütövlüyünün pozulmasına birbaşa çağırışlar var və bu sənədə istinadlar da Ermənistanın Konstitusiyasında öz əksini tapıb. Həmçinin Ermənistanın digər normativ-hüquqi sənədlərində Azərbaycana qarşı ərazi iddiaları, Ermənistanın qoşulduğu bir çox konvensiyalarda və digər sənədlərdə Azərbaycanın Qarabağ üzərində suverenliyini tanımayan çoxsaylı qeyd-şərtlər mövcuddur. Bununla yanaşı, dövlətimizin başçısı vurğulayıb ki, Ermənistanın beynəlxalq məhkəmələrdə Azərbaycana qarşı irəli sürdüyü iddiaların əsasında Ermənistan tərəfindən Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün tanınmaması, Qarabağın Azərbaycandan ayrılması kimi məsələlər təşkil edir. Azərbaycan Prezidenti qeyd edib ki, bu iddialara son qoyulduğu, Ermənistan Konstitusiyasında və digər normativ hüquqi sənədlərdə dəyişikliklər edildiyi halda sülhə nail oluna bilər. Ermənistanda bunun tez bir vaxtda həyata keçirilməsinin vacibliyini bildirən dövlətimizin başçısı vurğuladı ki, hazırda Ermənistanda bu mövzuda ölkədaxili müzakirələrin başlanması müsbət addım kimi qiymətləndirilir və bu, sülh prosesinin tezliklə yekunlaşdırılması üçün yaxşı imkan yarada bilər.

Qonaq Beynəlxalq Parlamentlər İttifaqının Ermənistanın və Azərbaycanın parlament nümayəndələri arasında dialoq üçün platforma ola biləcəyi təklifi ilə çıxış edib. Dövlətimizin başçısı bu təşəbbüsü yüksək qiymətləndirərək, iki ölkənin parlamentləri arasında məhz bu platformada dialoqun aparılmasının Azərbaycan tərəfindən dəstəkləndiyini diqqətə çatdırıb.

Fransanın regionda dağıdıcı siyasət həyata keçirərək od üstünə benzin tökmək prinsipindən çıxış etdiyini, Ermənistanın militarizasiya siyasətini apardığını, geosiyasi intriqaların təşəbbüskarı olduğunu deyən Prezident İlham Əliyev rəsmi Parisin regionda vəziyyətin gərginləşməsinin səbəbkarı olduğunu, müxtəlif beynəlxalq təşkilatlarda və parlament müstəvilərində anti-Azərbaycan siyasət yürütdüyünü də diqqətə çatdırıb. Dövlətimizin başçısı Fransanın Cənubi Qafqaz regionunda aparıcı mövqeyə nail olmaq və nüfuzunu gücləndirmək məqsədilə siyasət yürütdüyünü, lakin onların bu istiqamətdəki cəhdlərinin əbəs olduğunu vurğulayıb.

Prezident İlham Əliyev Avropa Şurası Parlament Assambleyasında anti-Azərbaycan xarakteri daşıyan və Azərbaycan nümayəndə heyətinin etimadnaməsinin ratifikasiya edilməməsi ilə bağlı azlıq olan bir qrupun təşəbbüsünün dialoqa xidmət etmədiyini vurğulayaraq bildirib ki, bu, ümumiyyətlə, parlament platformasının ənənələri ilə ziddiyyət təşkil edir. Azərbaycan nümayəndə heyətinin hüquqlarının bərpa edilməli olduğunu deyən dövlətimizin başçısı diqqətə çatdırıb ki, Azərbaycan nümayəndə heyətinin hüquqları bərpa olunmayacağı təqdirdə, Azərbaycan tərəfindən də Avropa Şurası və Avropa İnsan Haqları Məhkəməsində iştirak məsələsinə yenidən baxılacaq.

Martin Çunqonq Parlamentlərarası İttifaqın parlamentarilər arasında dialoqa, inklüzivliyə çağırdığını, eksklüzivliyinin tərəfdarı olmadığını, bu kimi yanaşmaların düzgün qəbul edilmədiyini, beynəlxalq parlamentarizm ənənələri ilə uyğun gəlmədiyini diqqətə çatdırıb.

Qonaq COP29-la bağlı dövlətimizin başçısını təbrik edərək, COP29 keçiriləcəyi zaman Parlamentlərarası İttifaq çərçivəsində parlament nümayəndə heyətlərini bir araya gətirən, ətraf mühit və iqlim dəyişikliyi istiqamətlərində beynəlxalq səyləri dəstəkləyən bir tədbirin təşkil olunma təşəbbüsü ilə çıxış edib. Bu təşəbbüsü dəstəkləyən dövlətimizin başçısı qonağı Azərbaycanın ev sahibliyi edəcəyi COP29-a dəvət edib. Dəvət məmnunluqla qəbul olunub.

Parlamentlərarası İttifaqın Baş katibi Azərbaycanın Qoşulmama Hərəkatına uğurlu sədrliyi münasibətilə də təbriklərini çatdırıb, ölkəmizin Hərəkatın parlament ölçüsünün yaradılması təşəbbüsünü təqdir edib.

Prezident İlham Əliyev Azərbaycanın Qoşulmama Hərəkatına 4 illik sədrliyi müddətində bu təsisatın beynəlxalq nüfuzunun artırılması, yeni əməkdaşlıq sahələrinin yaradılması, bu xüsusda parlament, gənclər ölçülərinin və qadın platformasının təsis olunması istiqamətində təşəbbüslərlə çıxış etdiyini vurğulayıb.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

# Azərbaycan Ordusunun bir qrup yüksək rütbəli hərbi qulluqçusunun Türkiyədə səfəri davam edir








*Qardaş ölkədə səfərdə olan nümayəndə heyəti Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin Ankara şəhərində yerləşən parkdakı abidəsini və Türkiyə Respublikasının banisi Mustafa Kamal Atatürkün mavzoleyini - Anıtqəbri ziyarət edib. Azərbaycan və Türkiyənin Ulu Öndərlərinin xatirəsinə dərin hörmət və ehtiram nümayiş etdirilib.*



Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, səfər çərçivəsində azərbaycanlı nümayəndələr Türkiyə Respublikasının milli müdafiə naziri cənab Yaşar Güler və Silahlı Qüvvələrin Baş Qərargah rəisi ordu generalı Metin Gürak ilə görüşüblər. Hər iki görüşdə Azərbaycan ilə Türkiyənin digər sahələrdə olduğu kimi, hərbi sahədə də əməkdaşlığının dostluq və qardaşlıq münasibətləri üzərində qurulduğu vurğulanıb, ölkələrimiz arasında əlaqələrin yüksək səviyyədə olmasından məmnunluq ifadə edilib.



Ordumuzun yüksək rütbəli hərbi qulluqçuları Milli Müdafiə Universitetinin Quru Qoşunları Ali Hərbi Məktəbinin tədris korpuslarını ziyarət edib, buranın maddi-texniki bazası və yaradılan şəraitlə tanış olublar. Onlara tədris prosesi barədə ətraflı məlumat verilib.

Səfər çərçivəsində azərbaycanlı nümayəndə heyəti Türkiyə Respublikasının Silahlı Qüvvələrinin müxtəlif komandanlıqlarını və əməliyyat mərkəzlərini, eləcə də hərbi sənaye şirkətlərini ziyarət edib, burada qərargah fəaliyyətləri, silah-texnika və hərbi təyinatlı vasitələrlə tanış olub.



# Azərbaycan və Serbiya Müdafiə nazirlikləri arasında ikitərəfli hərbi əməkdaşlıq planı imzalanıb



*Azərbaycan və Serbiya Müdafiə nazirlikləri nümayəndələrinin iştirakı ilə ikitərəfli hərbi əməkdaşlıq danışıqları keçirilib.*

Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsində keçirilən görüşdə Azərbaycan və Serbiya arasında hərbi əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri müzakirə edilib, həmçinin qarşılıqlı maraq doğuran mövzulara dair ətraflı fikir mübadiləsi aparılıb.




Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, görüşün sonunda Azərbaycan və Serbiya Müdafiə nazirlikləri arasında 2024-cü il üçün ikitərəfli hərbi əməkdaşlıq planı imzalanıb.

# Azərbaycan Ordusunun bölmələri ilə yeni tədris dövrünün məşğələləri keçirilir

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin qarşıya qoyduğu tələblərə, müdafiə nazirinin əmr və sərəncamlarına əsasən, qoşunların döyüş hazırlığının yüksək səviyyədə saxlanılması məqsədilə Azərbaycan Ordusunda təlim-tədris prosesi davam etdirilir.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, yeni tədris dövrünün başlanması ilə əlaqədar hərbi hissələrdə döyüşə hazırolma üzrə tədbirlər həyata keçirilir.

Tədbirlər zamanı bölmələrin həyəcan siqnalı ilə qaldırılaraq döyüşə hazır vəziyyətə gətirilməsi üzrə tapşırıqlar məşq etdirilir.

Qeyd edək ki, 2024-cü ilin hazırlıq planına əsasən, bölmələrin daimi dislokasiya məntəqələrini tərk edərək təlim mərkəzlərinə və ümumqoşun poliqonlarına hərəkəti də nəzərdə tutulub.



# Xankəndi şəhərində Azərbaycan Ordusu gənclərinin forumu keçirilib




***Xankəndi şəhərində Azərbaycan Ordusu gənclərinin forumu keçirilib. 2 Fevral - Azərbaycan Gəncləri Gününə həsr olunan bu forumda Müdafiə, Gənclər və İdman nazirliklərinin rəsmiləri, Azərbaycan Ordusunun qoşun növləri, birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrindən seçilən gənc zabit, gizir, çavuş, əsgər və kursantlar iştirak ediblər.***

Bir vaxtlar təcavüzkar Ermənistan ordusunun və separatçıların qərargahına çevrilmiş, indi isə Azərbaycan Respublikasının Dövlət Bayrağı dalğalanan hərbi şəhərcikdə forum iştirakçılarını hərbi orkestr "Qələbə marşı" ilə qarşılayıb.

Tədbirin loqosu, plakat və şüarlarla bəzədilmiş salonda qələbəlik yaşanıb. Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin rəisi Əməkdar artist, polkovnik-leytenant Cahangir Qurbanovun və vokal qrupunun ifa etdiyi "Böyük Zəfər marşı"nın sədaları altında salona daxil olan iştirakçılara xatirə hədiyyələri və üzərində "Azərbaycan Ordusu gənclərinin Xankəndi forumu" sözləri yazılmış döş nişanları təqdim olunub.

Forum başlamazdan öncə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə 1-2 fevral 1996-cı il tarixlərində keçirilən Müstəqil Azərbaycan Respublikası gənclərinin forumunda Azərbaycan xalqının Ümummilli Liderinin çıxışından fraqment səsləndirilib: "Bu forumun əvvəlindən gözləyirdim ki, nə vaxt bizim bir əsgər çıxış edəcəkdir, nə vaxt bir hərbi məsələ haqqında danışılacaqdır. Səbirsizliklə gözləyirdim ki, bəs niyə bu gecikir, nə üçün bunu gecikdirirlər? Bəzən az qala istəyirdim xəbər göndərim ki, bəs bizim ordunun nümayəndəsinə söz verin. Nəhayət, ordumuzun nümayəndəsi Abdulla Qurbani çıxış etdi, çox hərarətli çıxış etdi və forum iştirakçıları da onu çox böyük sevgi, məhəbbətlə qarşıladılar. Ancaq bunlar hamısı azdır. Ordu mövzusu, ordunun yaranması, formalaşması bizim həyatımızda əsas mövzulardan biri olmalıdır, gənclərin orduda xidmət etmək üçün tərbiyələndirilməsi bizim əsas vəzifələrimizdən biri olmalıdır və bu vəzifələri biz ardıcıl surətdə həyata keçirməliyik".



28 il öncə keçirilən həmin forumun, Birinci və İkinci Qarabağ müharibələrinin iştirakçısı, Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbani forum iştirakçılarını və qonaqları salamlayaraq, iki gün davam edən birinci forumda unudulmaz Heydər Əliyevin gənclərin fəaliyyət proqramına çevrilən tarixi nitqi barədə danışıb, Ulu Öndərlə bağlı xatirələrini bölüşüb. Ordu gənclərinə dahi liderin söylədiyi fikirlərlə müraciət edib: "Əziz gənclər! Sizin qarşınızda çox böyük vəzifələr durur, qarşınızda böyük yol var. Yol hamar deyil, asfalt deyil, yol uzun yoldur, cürbəcür maneələrlə bağlı olan yoldur, o yolu hər biriniz keçməlisiniz. Bu yol müstəqil Azərbaycanın gələcəyi yoludur".



Silahlı Qüvvələr veteranı polkovnik A.Qurbani bugünkü foruma moderatorluq edəcək ordu gənclərinin nümayəndəsi, Hərbi Dəniz Qüvvələrinin zabiti ədliyyə kapitanı Rüstəm Əliyevi səhnəyə dəvət edərək yaşlı nəslin estafetini rəmzi olaraq gəncliyin nümayəndəsinə verib.

Gənc zabit R.Əliyev ordu gənclərinə göstərilən etimadı doğruldacaqlarına və bundan sonra da Vətənə, xalqa, dövlətə sədaqətlə xidmət edəcəklərinə and içərək deyib: "Bu gün hər bir Azərbaycan gənci, o cümlədən ordu gəncləri üçün əlamətdardır. Biz Ulu Öndərin təsis etdiyi "2 Fevral - Azərbaycan Gəncləri Günü"nü Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında Vətən müharibəsində və lokal xarakterli antiterror tədbirlərində qazandığımız möhtəşəm Zəfərin yaratdığı böyük Qələbə əhval-ruhiyyəsi, döyüş və mənəvi-psixoloji hazırlıqda, təhsildə, təlimlərdə və idmanda əldə etdiyimiz uğur və nailiyyətlərlə qarşılayırıq. Dövlət rəhbərliyi və xalqımız əmin ola bilər ki, qalibiyyət bayrağımız etibarlı əllərdədir, Azərbaycan gəncliyi, eləcə də böyük qüvvə olan ordu gəncləri Azərbaycanın dövlət müstəqilliyinin, ərazi bütövlüyünün keşiyində məğrur dayanıb və Müzəffər Ali Baş Komandanın hər bir əmrinə hazırdır".



Ordu gənclərinin Xankəndi forumunun proqramı və reqlamenti elan edildikdən sonra fəxri qarovul dəstəsi Şuşaya sancılan, Bakıda Azadlıq meydanında, ötən il noyabrın 8-də isə Xankəndi şəhərində keçirilən hərbi paradda nümayiş etdirilən Zəfər bayrağını salona gətirib. İştirakçılar Zəfər bayrağını ayaqda alqışlarla qarşılayıblar.

Gəncliyin böyük hamisi Ulu Öndər Heydər Əliyevin və respublikamızın suverenliyi, ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə ucalan Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni ifa olunub.

Müdafiə Nazirliyi Şəxsi Heyət Baş İdarəsinin rəisi vəzifəsini icra edən general-mayor Elçin Xəlilov Müdafiə Nazirliyinin rəhbərliyi adından forum iştirakçılarına uğurlar arzulayıb.

Qeyd edilib ki, Azərbaycanda "Gənclər Günü"nün təsis edilməsi Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin adı ilə bağlıdır. Gənclərə xüsusi qayğı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin də daim diqqət mərkəzindədir. Dövlət başçısının müvafiq sərəncamları ilə Azərbaycan Gənclərinin İnkişaf Strategiyası və Dövlət Proqramı qəbul edilmişdir. Bu sənədlərin məqsədi Azərbaycanda gənclər siyasətinin daha səmərəli həyata keçirilməsinə nail olmaq,



cəmiyyətin bütün sahələrində gənclərin fəal iştirakına şərait yaratmaq, onların yaradıcı potensialının üzə çıxarılmasını dəstəkləməkdir.

Nəzərə çatdırılıb ki, Azərbaycan Ordusunda xidmət edən hərbi qulluqçuların böyük əksəriyyətini gənclər təşkil edir. Onlar Vətəni qoruyur, düşmənlə üzbəüz mövqelərdə dayanırlar. Minlərlə gənc hərbi qulluqçularımız təcavüzkar Ermənistan ordusuna qarşı döyüşlərdə böyük igidliklər göstərib. Vətən uğrunda canlarını və sağlamlıqlarını qurban verərək adlarını müasir hərb tariximizə qızıl hərflərlə yazıblar.

General-mayor Elçin Xəlilov müdafiə naziri general-polkovnik Zakir Həsənovun Azərbaycan Ordusu gənclərinin Xankəndi forumunun iştirakçılarına təbrikini çatdırıb.

Həmin təbrikdə deyilir: "Əziz gənclər! Hər biriniz yaxşı bilirsiniz ki, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan hərbi quruculuq prosesi ölkəmizdə bu gün də dinamik sürətlə davam etdirilir və ordumuz daha da güclənir, daha da təkmilləşmə, inkişaf dövrünü yaşayır. Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin dəfələrlə vurğuladığı kimi, ordu quruculuğu dövlətimiz üçün ən başlıca məsələdir. Azərbaycan Ordusunun müdafiə qüdrətinin və döyüş qabiliyyətinin durmadan artırılması, maddi-texniki təchizatının yüksəldilməsi, o cümlədən hərbi qulluqçuların sosial müdafiəsinin gücləndirilməsi bu siyasətin prioritet istiqamətlərindəndir. Əmin ola bilərsiniz ki, hərbi qulluqçularımızın rifahı, maddi-təminatı bundan sonra daha da yaxşılaşacaqdır.

Respublikamızın suverenliyi və ərazi bütövlüyünün tam bərpasından sonra da orduda məqsədli islahatların kompleks şəkildə həyata keçirilməsi ordumuzun aparıcı dövlətlərin orduları səviyyəsinədək yüksəldilməsinə şərait yaradıb. Dövlət rəhbərliyinin ardıcıl olaraq apardığı islahatlar ölkəmizin bütün sahələrdə inkişafına təkan verdiyi kimi, hərbi büdcəmizin də qısa müddətdə dəfələrlə artmasına imkanlar yaradıb".

**(Ardı 4-cü səhifədə)**

# Xankəndi şəhərində Azərbaycan Ordusu gənclərinin forumu keçirilib





(Əvvəli 3-cü səhifədə)

Müdafiə naziri təbrik məktubunda əmin olduğunu bildirib ki, Azərbaycan Ordusunun şəxsi heyəti, xüsusilə ordu gəncləri göstərilən ali etimadı bundan sonra da doğruldacaq, torpaqlarımızın keşiyində mərdliklə duracaq, xalqımızı gələcəkdə də döyüş, mənəvi-psixoloji hazırlıqda əldə etdiyi uğurlar və nailiyyətlər ilə mütəmadi olaraq sevindirəcəklər.

Hərbi Hava Qüvvələrinin pilotu, Vətən müharibəsi iştirakçısı baş leytenant Fərid İsgəndərov, Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzinin zabiti leytenant Xəzər Nəsibli, Hərbi Dəniz Qüvvələrinin nümayəndəsi miçman Teymur Bəxşiyev, Heydər Əliyev adına Hərbi İnstitutun kursantı Elgün Xanalıyev, baş leytenant Elçin Musazadə, Cəmşid Naxçıvanski adına Hərbi Liseyin kursantı Nizami Süleymanlı və başqaları çıxışlarında keçən il Horadiz şəhərində keçirilmiş forumdan sonra ötən müddətdə xidmət etdikləri hərbi hissələrin nailiyyətlərindən danışıb, Xankəndi şəhərində keçirilən forumdan sonra da yeni-yeni uğurlar əldə edəcəklərinə söz veriblər.

Gənclər və İdman nazirinin müavini İndira Hacıyeva forum iştirakçılarını təmsil etdiyi nazirliyin rəhbərliyi adından 2 Fevral - Azərbaycan Gəncləri Günü münasibətilə təbrik edib, respublika gənclərinin mübariz dəstəsi olan ordu gənclərinin dünyanı heyrətə gətirmiş şücaət və igidliklərindən böyük iftixar hissi ilə söz açıb və Müdafiə Nazirliyinin ordu gənclərinə xüsusi diqqət və qayğı göstərdiyini, Xankəndi forumunun yüksək səviyyədə təşkil edildiyini məmnunluqla bildirib.

İşğaldan azad edilən tarixi torpaqlarımızın keşiyində bu gün də ayıq-sayıq dayanaraq düşmənin ehtimal olunan təxribatlarının qarşısını qətiyyətlə almağa hər an hazır olan ordu birliyinin şəxsi heyəti adından çıxış edən general-mayor Bilal Çompuzov forum iştirakçılarına Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin ötən il yeni yaradılan komando hərbi hissəsinə Döyüş bayrağı təqdim edərkən söylədiyi "Bu gün Azərbaycan Ordusu müharibə dövründə qəhrəmanlıq və peşəkarlıq göstərmiş Azərbaycan Ordusundan daha da güclüdür" fikirlərini xatırladıb və bunun qanlı döyüşlərdən qalibiyyətlə çıxmış müasir ordumuza verilən ən yüksək dəyər olduğunu bildirib.



Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevə Azərbaycan Ordusu gənclərinin Xankəndi forumu iştirakçılarının müraciətini Milli Müdafiə Universitetinin Hərbi İdarəetmə İnstitutunun dinləyicisi, Vətən Müharibəsi Qəhrəmanı kapitan Ramazan Hudulov səsləndirib. Forum iştirakçıları ayağa qalxaraq müraciəti alqışlarla, yekdilliklə qəbul ediblər.

2 Fevral - Azərbaycan Gəncləri Günü münasibətilə Azərbaycan Ordusunun hərbi qulluqçularının mükafatlandırılması haqqında Azərbaycan Respublikasının müdafiə nazirinin və müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisinin əmrləri forum iştirakçılarının nəzərinə çatdırılıb.

Döyüş və ictimai-siyasi hazırlıqda əldə etdikləri uğurlara, hərbi hissələrin qarşısında qoyulmuş vəzifələrin həyata keçirilməsində fərqləndiklərinə və "2 Fevral - Azərbaycan Gəncləri Günü" münasibətilə ordu gənclərindən bir qrupuna Fəxri Fərman və qiymətli hədiyyələr təqdim olunub.

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivinin ifa etdiyi vətənpərvərlik mahnı və rəqsləri forum iştirakçıları tərəfindən maraqla qarşılanıb.

Birinci Qarabağ müharibəsi veteranı, ordu mövzusunda onlarla kitabın müəllifi, Əməkdar jurnalist, istefada olan mayor 70 yaşlı Rəşid Hüseynovun Xankəndiyə həsr etdiyi şeir və "Kaş mən də sizin tək bir gənc olaydım" misrası forum iştirakçılarına qürurverici və duyğulu anlar yaşadıb.

Forum iştirakçıları nahardan sonra Xankəndi şəhərinin mərkəzi meydanında olub, Müzəffər Ali Baş Komandanın ucaltdığı Azərbaycan Bayrağının dalğalanmasını fəxarət hissi ilə seyr edib, Xocalı və Əsgəran qalasını ziyarətdən xoş təəssüratlarla ayrılıblar.

**"Azərbaycan Ordusu"**





## Komando bölmələri yeni tədris dövründə müxtəlif tapşırıqların icrasını məşq etdirirlər

Azərbaycan Ordusunda yeni tədris dövrünün başlanması ilə əlaqədar komando bölmələri müxtəlif tapşırıqların icrasını məşq etdirirlər.



Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, məşqlərdə yaranmış vəziyyətə uyğun olaraq qərargah tərəfindən əməliyyat şəraiti qiymətləndirilib, taktiki hesablamalar aparılıb və zəruri məlumatlar hazırlanaraq bölmələrə tapşırıqlar verilib.

Həyəcan siqnalı ilə daimi dislokasiya məntəqələrini tərk edən komandolar verilən tapşırıqların icrası ilə bağlı müvafiq qərarlarını bölmələrə çatdırıblar.

Döyüşə hazır vəziyyətə gətirilən bölmələr yaşayış məntəqələrində və açıq ərazilərdə reydlərin keçirilməsi, eləcə də digər əməliyyatlar üzrə fəaliyyətləri yüksək peşəkarlıqla yerinə yetiriblər.

## ANAMA azad edilmiş ərazilərdə ötən ay aşkarlanan mina və hərbi sursat barədə məlumatı açıqlayıb

*Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinə cəlb olunmuş qurumlar tərəfindən icra olunan əməliyyatlar barədə aylıq məlumatı açıqlayıb.*




ANAMA-dan AZƏRTAC-a bildiriblər ki, yanvar ayı ərzində Tərtər, Ağdərə, Ağdam, Xocalı, Kəlbəcər, Laçın, Xankəndi, Xocavənd, Füzuli, Şuşa, Qubadlı, Cəbrayıl və Zəngilanda piyada əleyhinə 123, tank əleyhinə 40 mina və 203 partlamamış hərbi sursat aşkarlanıb.

Bildirilib ki, 734,7 hektar ərazi mina və partlamamış hərbi sursatlardan təmizlənib.

# “Strateji araşdırmalar və dövlət müdafiəsini idarəetmə akademik kursu”nun açılış mərasimi keçirilib



Fevralın 1-də Milli Müdafiə Universitetinin Hərbi İdarəetmə İnstitutunun "Strateji araşdırmalar və dövlət müdafiəsini idarəetmə akademik kursu"nun növbəti qəbulunun açılış mərasimi keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Azərbaycanın suverenliyi, müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə yüksələn qəhrəman Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Digər dövlət qurumlarının nümayəndələrinin də iştirak etdiyi tədbirdə Hərbi İdarəetmə İnstitutunun rektoru polkovnik Bəbir Quliyev akademik kursun açılışı münasibətilə Müdafiə Nazirliyinin və Milli Müdafiə Universitetinin rəhbərliyi adından iştirakçıları təbrik edib, onlara tədrisdə uğurlar arzulayıb.

Qeyd edək ki, tədris müddətində akademik kursun dinləyicilərinə beynəlxalq münasibətlər, qlobal təhlükəsizlik, xarici siyasətin, strategiya və müdafiənin planlaşdırılmasının, dövlət müdafiəsinin və müdafiə resurslarının idarə edilməsinin əsaslarına dair mövzularda mühazirələr oxunacaq, seminarlar, qrup çalışmaları və praktiki təcrübələr keçiriləcək.



# 2 Fevral - Azərbaycan Gəncləri Günü münasibətilə tədbirlər keçirilib




2 Fevral - Azərbaycan Gəncləri Günü ilə əlaqədar Quru Qoşunlarında, eləcə də xüsusi təyinatlı təhsil müəssisələrində tədbirlər keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, tədbirlərdə əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olan qəhrəman Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.

Plana uyğun olaraq, şəxsi heyət Heydər Əliyev mərkəzlərini, muzeyləri və abidələri ziyarət edib, "dəyirmi masa"lar, eləcə də müxtəlif mədəni-kütləvi tədbirlər və idman yarışları təşkil olunub, "Əsgərə məktub" layihəsi çərçivəsində Vətən müdafiəçilərinə məktublar ünvanlanıb.

Çıxış edənlər Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə müstəqil Azərbaycan Respublikası Gənclərinin I Forumunun təşkili və Gənclər Gününün təsis olunmasından, bu gün dahi rəhbərin əsasını qoyduğu gənclər siyasətinin Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsindən danışıblar.

Qeyd olunub ki, ölkəmizin inkişafına layiqli töhfələr verən Azərbaycan gənci 44 günlük Vətən müharibəsində Zəfər salnaməsi yazaraq bütün dünyaya xalqımızın qələbə əzmini və güclü Vətən sevgisini nümayiş etdirib.

Tədbirlərdə Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzi, Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzi, eləcə də rayon mədəniyyət şöbələrinin yaradıcı kollektivləri şəxsi heyət qarşısında maraqlı proqramlar ilə çıxış ediblər.

Sonda xidmətdə, eləcə də yarışlarda fərqlənən bir qrup şəxs Fəxri Fərman və medallarla mükafatlandırılıb.

* * *

Əlahiddə Ümumqoşun Ordunun, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman, Təhsil nazirliklərinin birgə təşkilatçılığı ilə 2 Fevral - Azərbaycan Gəncləri Günü ilə bağlı tədbir keçirilib.

Tədbir çərçivəsində bir qrup gəncin Naxçıvan Döyüş Şöhrəti Muzeyinə ekskursiyası təşkil olunub. Muzeydə nümayiş olunan müxtəlif illərdə döyüş növbətçiliyinə qəbul edilmiş və döyüş yolu keçmiş artilleriya qurğuları, aviasiya və hava hücumundan müdafiə vasitələri, mühəndis, zirehli tank və avtomobil texnikaları, piyadanın döyüş maşınları və digər eksponatlar gənclər tərəfindən maraqla qarşılanıb.



Gənclər Əlahiddə Ümumqoşun Ordunun Təlim-Tədris Mərkəzinə gələrək təlim-məşq trenajorları ilə də tanış olublar. Məlumat verilib ki, trenajorlar zalında xüsusi proqram təminatına malik kompüterlər və məşq qurğuları quraşdırılıb. Burada döyüş sursatı və yanacaq sərf etmədən tank, piyadanın döyüş maşınları, artilleriya qurğuları və digər döyüş texnikalarının idarə olunması üzrə hərbi qulluqçuların bacarıqları təkmilləşdirilir.

Daha sonra Təlim-Tədris Mərkəzində Azərbaycan Gəncləri Günü ilə bağlı tədbir keçirilib. Tədbirdə çıxış edənlər bildiriblər ki, Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu uğurlu gənclər siyasətinin davam etdirilməsi nəticəsində Azərbaycan gəncliyi ölkəmizin bu günü və gələcəyi haqqında düşünür, əməli fəaliyyətində vətəndaşlıq hisslərinə malik olduğunu nümayiş etdirir. Torpaqlarımızın azadlığı uğrunda aparılan döyüş əməliyyatlarında gənclərimizin göstərdiyi şücaət bunu bir daha sübut edir.

Tədbirdə hərbi orkestrin ifasında hərbi marşlar ifa edilib və "Gənclərin sözü" filminə baxış olub.



# Yeni tədris dövründə praktiki məşğələlər icra olunur



Cari ilin döyüş hazırlığı planına əsasən, yeni tədris dövrü ilə əlaqədar Azərbaycan Ordusunun qoşun növləri və hərbi hissələrində keçirilən praktiki məşğələlər uğurla icra olunur.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, plana uyğun olaraq, həyəcan siqnalı ilə daimi dislokasiya məntəqələrindən cəmləşmə rayonlarına çıxarılan döyüş texnikası və artilleriya qurğularının atəş mövqelərində döyüş tətbiqinə hazırlanması üzrə tapşırıqlar normativlərə uyğun olaraq yerinə yetirilir.

Qoşunların döyüşə hazırolma vəziyyətinin yüksək səviyyədə saxlanılması, bölmələrin dayanıqlı, fasiləsiz və operativ idarəedilməsinin təmin edilməsi məqsədilə keçirilən məşğələlərdə hərbi qulluqçular yüksək peşəkarlıq nümayiş etdirirlər.

# MN: Mühəndis bölmələri 36 min hektaradək ərazini mina və partlamamış hərbi sursatdan təmizləyib

Müdafiə Nazirliyi işğaldan azad edilən ərazilərdə Azərbaycan Ordusunun mühəndis bölmələri tərəfindən görülən tədbirləri açıqlayıb.

AZƏRTAC nazirliyin feysbuk səhifəsinə istinadla xəbər verir ki, mühəndis-istehkam bölmələri ümumilikdə 36 min hektaradək ərazini mina və partlamamış hərbi sursatdan təmizləyib.

Onlardan 10 min 400-ü piyada əleyhinə, 3300-ü tank əleyhinə mina, 11 min 850-si partlamamış döyüş sursatı olub.



# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)

**Mövzu:** Hərbi biliyə dərindən yiyələnmək, döyüş texnikasını və silahları öyrənmək hər bir döyüşçünün borcudur

**Suallar:**

**1. Hərbi biliyə dərindən yiyələnmək, döyüş texnikası və silahlardan bacarıqla istifadə etmək döyüşdə qələbəni təmin edir.**

**2. Hərb işini vicdanla öyrənmək Azərbaycan Ordusunun hərbi qulluqçularının borcudur.**

### Hərbi biliyə dərindən yiyələnmək, döyüş texnikası və silahlardan bacarıqla istifadə etmək döyüşdə qələbəni təmin edir

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili Xidmət Nizamnaməsinin tələblərinə əsasən, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçusu öz Vətəninin - Azərbaycan Respublikasının müdafiəçisidir.

Hərbi qulluqçu öz Vətəninin müdafiəsi üçün şəxsi məsuliyyət daşıyır. O, Azərbaycan dövlətinin mənafeyini qorumağa, onun nüfuzunun və qüdrətinin möhkəmlənməsinə səy göstərməyə, Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına müqəddəscəsinə və sarsılmaz surətdə riayət etməyə, Hərbi Andı yerinə yetirməyə, intizamlı, vicdanlı, doğruçu və cəsarətli olmağa, hərbi borcunu yerinə yetirərkən bütün qüvvəsini və lazım gəldikdə canını da əsirgəməməyə, komandirlərə (rəislərə) sözsüz tabe olmağa və döyüşdə onları müdafiə etməyə, öz hərbi hissəsinin Döyüş Bayrağını göz bəbəyi kimi qorumağa borcludur.

Hərbi qulluqçu hərbi nizamnamələrin tələblərini və öz vəzifələrini yaxşı bilməli və vicdanla yerinə yetirməli; hərbi bilikləri müntəzəm surətdə təkmilləşdirməli; ona tapşırılmış silahları, döyüş texnikasını və digər texnikanı mükəmməl bilməli, həmçinin hərbi əmlakı və xalq əmlakını qorumalı; ağlabatan təşəbbüslər göstərməli; hərbi xidmətin bütün çətinlik və məhrumiyyətlərinə mətinliklə dözməli; döyüşçü yoldaşlığına sadiq olmalı, öz yoldaşlarına sözü və işi ilə kömək etməli, onları nalayiq hərəkətlərdən çəkindirməli, həyatını əsirgəmədən təhlükədən xilas etməli; sayıq olmalı, hərbi və dövlət sirlərini ciddi surətdə saxlamalıdır.

Azərbaycan Ordusunun hər bir hərbi qulluqçusu Vətən qarşısında müqəddəs borcunu dərindən dərk edərək hərbi biliyə dərindən yiyələnməli və daim döyüş hazırlığını təkmilləşdirməlidir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev öz çıxışlarında dəfələrlə vurğulayıb ki, ordu quruculuğu, müdafiə potensialının möhkəmlənməsi və güclü ordunun yaranması dövlət üçün, hökumət üçün, hər bir vətəndaş üçün bir nömrəli vəzifədir.

Döyüş - qoşunların taktiki fəaliyyətinin əsas forması, bölmələrin müəyyən ərazidə qısa müddət ərzində düşməni məğlub (darmadağın) etmək və digər taktiki tapşırıqları yerinə yetirməsi məqsədilə hədəfə və vaxta görə əlaqələndirilmiş zərbə və manevrdən ibarət müxtəlif hərbi birləşmələrin, hərbi texnika və silahların tətbiq olunduğu mütəşəkkil silahlı toqquşmadır. O, hərbi hissə və bölmələrin taktiki fəaliyyətlərinin əsas forması olmaqla, şəxsi heyətin mənəvi və fiziki qüvvələrinin hərtərəfli sınağıdır. Onun uğuru əsasən döyüşü aparmaq üçün insanların cəsarətindən, dözümlüyündən, mənəvi keyfiyyətlərindən, hazırlıq səviyyəsindən və texnikanın hazırlığından asılıdır.

Qələbə düşmənin döyüşdə darmadağın edilməsi və bütün silah növlərinin güclü və dəqiq zərbələri, onların nəticələrindən vaxtında istifadə, birləşmə, hissə və bölmələrin fəal və qətiyyətli hərəkəti ilə əldə edilir. Müasir döyüş öz xarakterinə görə ümumqoşun döyüşüdür. Bu döyüşdə əsgərin rolu qat-qat artır. O öz Vətəninin müdafiəsi üçün şəxsi məsuliyyət daşıyır. Əməliyyatların qətiyyətliliyinin təmin olunmasında şəxsi heyətin yüksək mənəvi-döyüş keyfiyyətləri, onun qələbəyə sarsılmaz inamı, silahları və döyüş texnikasını mükəmməl bilməsi və bacarıqla tətbiq etməsi böyük rol oynayır.

Birinci və İkinci Qarabağ müharibələrində Azərbaycanın ərazi bütövlüyü uğrunda aparılan döyüşlərdə döyüşçülərimizin texnika və silahlardan bacarıqla istifadə edərək düşmənin zirehli texnikasına, müdafiə qurğularına, canlı qüvvəsinə vurduqları ciddi zərbələrin döyüş müvəffəqiyyətinə təsiri barədə nümunələr çoxdur. Lakin təəssüf hissi ilə qeyd etmək lazımdır ki, 1992-1993-cü illərdə Ermənistan və Azərbaycan arasında mövcud olmuş münaqişədə Azərbaycan Ordusu hissələrinin apardıqları bir sıra döyüş əməliyyatlarının müvəffəqiyyətsizliyə uğramasının əsas səbəblərindən biri də bəzi döyüşçülərin onlara həvalə olunmuş silah və texnikaların döyüş imkanlarını zəif bilmələri və bu imkanlardan döyüşdə tam istifadə edə bilməmələri idi. Buna səbəb isə müstəqilliyin ilk günlərindən ordunun yaradılması prosesinin bilavasitə döyüşlər getdiyi dövrdə formalaşması, Azərbaycan Ordusunda şəxsi heyəti hazırlamaq üçün kifayət qədər kadrların və lazımi tədris bazasının olmaması, vaxt məhdudluğu idi. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 1993-cü ilin ağır günlərində ikinci dəfə hakimiyyətə gəlişi, Silahlı Qüvvələrdə dəmir nizam-intizam yaratması, əsil ordu quruculuğuna start verməsi ilə nail olundu. Bunun məntiqi nəticəsi olaraq Qarabağ bölgəsində gedən döyüşlərdə Azərbaycan Ordusunun qəhrəman döyüşçüləri məkrli düşmənin hücumlarının qarşısını alaraq cəbhədə əks-hücum əməliyyatları həyata keçirdi və bir sıra yaşayış məntəqələrimizi erməni silahlı dəstələrindən azad etdilər. Qısa zaman kəsiyində peşəkar, hərbi-intizamlı, hərb sənətinin bütün incəliklərinə malik olan yüksək səviyyəli ordu yaradıldı. Azərbaycan hərbçiləri xarici ölkələrin, xüsusilə Ermənistan və Azərbaycan arasında mövcud olmuş münaqişə başlayan gündən daim yanımızda olan, öz təmənnasız dəstəyini nümayiş etdirən dost-qardaş Türkiyənin yüksək səviyyəli ali hərbi məktəblərinə oxumağa, təlimlərdə iştirak edərək təcrübə keçməyə göndərildilər. Azərbaycan Ordusunun maddi-texniki bazasının gücləndirilməsinin, zabit-əsgər heyətinin yüksək hərbi hazırlığa və vətənpərvərlik əhval-ruhiyyəsinə malik olmasının nəticələri özünü 2016-cı ilin aprelində və 2020-ci ilin iyulunda qısamüddətli döyüşlər zamanı işğalçı qüvvələrə sarsıdıcı zərbələr endirərək onu geri çəkilməyə məcbur etməklə göstərmişdir. Vətən müharibəsi isə işğalçı Ermənistan ordusunun Azərbaycan Ordusu tərəfindən tamamilə darmadağın olunması və işğala məruz qalmış ərazilərimizin azad edilməsi ilə nəticələndi. Ordumuz döyüş meydanındakı əməliyyatları ilə dünyanın hərb tarixində yeni nümunələr yaratdı. 2022-ci ildə Rusiya sülhməramlılarının müvəqqəti nəzarətində olan ərazilərimizdə erməni terror-təxribat silahlı dəstələrinə qarşı keçirilən "Fərrux", "Qisas", sərhədin Kəlbəcər, Laçın, Daşkəsən istiqamətlərində Ermənistanın təxribatlarına cavab olaraq genişmiqyaslı hərbi əməliyyatlar və Azərbaycan Respublikasının Konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə 19 sentyabr 2023-cü ildə Qarabağda keçirilən bir günlük lokal xarakterli antiterror tədbirləri şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığını, yüksək vətənpərvərliyini, dövlətə sədaqətini, ordumuzun gücünü Ermənistan və onun havadarlarına, həmçinin bütün dünyaya göstərdi. Silahlı Qüvvələrimizin ötən son 21 ildə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin xüsusi diqqəti altında həyata keçirilən hərbi siyasətin səmərəliliyi döyüş meydanlarında təcəssümünü tapdı.

### Hərb işini vicdanla öyrənmək Azərbaycan Ordusunun hərbi qulluqçularının borcudur

Azərbaycan Respublikası Konstitusiyasının 76-cı maddəsində göstərilir ki, Vətəni müdafiə hər bir vətəndaşın borcudur. Azərbaycan Ordusunun sıralarına daxil olan hər bir Azərbaycan vətəndaşı öz Vətəni və xalqı qarşısında təntənəli surətdə Hərbi And içir. Hərbi And hər bir hərbi qulluqçudan;

- Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına ciddi əməl etməsini, Hərbi Andın tələblərini yerinə yetirməsini, sayıq olmasını, Azərbaycanın mənafeyini, onun suverenliyini, ərazi bütövlüyünü, müstəqilliyini şərəflə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin döyüşçüsünün vəzifə borcunu dərindən dərk etməsini və inamla qorumasını, bu işdə öz qüvvəsini, lazım gələrsə, həyatını da əsirgəməməsini;
- hərbi işi vicdanla öyrənməsini, komandirlərin (rəislərin) ona öyrətdiklərini möhkəm və səylə yadda saxlamasını, öz vəzifələrini nümunəvi yerinə yetirməsini, hərbi nizamnamələrin tələblərini möhkəm bilməsini və vicdanla yerinə yetirməsini;
- əmr və göstərişləri sözsüz, tez və vaxtında yerinə yetirməsini, igid və intizamlı olmasını, nalayiq hərəkətlər etməməsini və yoldaşlarını da belə hərəkətlərdən çəkindirməsini;
- dövlət sirrini qorumasını, böyüklərə hörmət etməsini, hərbi nəzakət, davranış qaydalarına ciddi əməl etməsini;
- silahını, döyüş texnikasını və digər texnikanı yaxşı bilməsini;
- əcdadların hərbi ənənələrini şərəflə davam və inkişaf etdirməyi, hər an əldə silah Vətənin müdafiəsinə qalxmağa hazır olmağı tələb edir.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin hərbi qulluqçularla görüşündə dediyi "Orduda hər bir əsgər, hər bir zabit, hər bir general bilməlidir ki, o özünü hərbi peşəyə həsr edir. Hərbi peşə isə Vətəni, torpağı qorumaqdır. Vətəni, torpağı qorumaq üçün isə gərək gücün olsun və əgər kimsə sənin torpağına, Vətəninə qəsd edirsə, ona layiqli cavab verə, layiqli zərbələr endirə biləsən" sözləri bu gün də Azərbaycan Ordusunun hər bir hərbi qulluqçusu üçün ən dəyərli tövsiyədir.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili Xidmət Nizamnaməsində hərbi qulluqçuların əsas vəzifələrindən biri kimi müəyyən edilir ki, hərbi qulluqçu hərbi nizamnamələrin tələblərini və öz vəzifələrini yaxşı bilməli, onları vicdanla yerinə yetirməli, hərbi bilikləri müntəzəm surətdə təkmilləşdirməli, ona tapşırılmış silahları, döyüş texnikası və digər texnikanı mükəmməl öyrənməlidir.

Daxili Xidmət Nizamnaməsi tələb edir ki, əsgər (matros) hərbi işi vicdanla öyrənsin, komandirlərin ona öyrətdiklərini möhkəm və səylə yadda saxlasın, silahını, döyüş texnikasını və digər texnikanı yaxşı bilsin. Bu gün regionda yaranmış hərbi-siyasi vəziyyət Azərbaycan Ordusunun hissə və birləşmələrinin daim döyüş hazırlıqlı və ərazi bütövlüyümüzə qarşı yönəldilən hər bir təcavüzə layiqli cavab verməyə qadir olmasını tələb edir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev Azərbaycan dövlətinin bu istiqamətdə yürütdüyü siyasətin məğzini, məqsədini çox aydın və dürüst şəkildə belə ifadə edib: "Biz bütün sahələrdə orduda gedən proseslərin inkişafına çalışırıq. Son illər ərzində maddi-texniki bazanın möhkəmdirilməsində böyük işlər görülmüşdür, çoxlu texniki avadanlıq, müasir silahlar alınmışdır və beləliklə, Azərbaycan Ordusu xeyli dərəcədə güclənmişdir. Biz bu prosesi davam etdirəcəyik".

Azərbaycan Respublikası Prezidentinin, Silahlı Qüvvələrin Ali Baş Komandanının və müdafiə nazirinin 2024-cü tədris ili üçün Azərbaycan Ordusu qarşısında qoyduqları əsas vəzifələrdən biri də hərbi hissə və bölmələrin döyüş qabiliyyətini yüksəltmək, döyüş tapşırıqlarını yerinə yetirməyə həmişə hazır olmaqdır. Bunun üçün isə hərbi hissələrdə intensiv döyüş hazırlığı prosesi təşkil olunmalıdır. Şəxsi heyət zabitlərin, gizirlərin və çavuşların rəhbərliyi altında döyüş və ictimai-siyasi hazırlıq məşğələlərində hərb işinin sirlərinə yiyələnməli, döyüş texnikasından və silahlardan bacarıqla istifadə etmək üçün öz biliklərini, bacarıqlarını və vərdişlərini daha da təkmilləşdirməli, mənəvi-psixoloji hazırlıqlarını artırmalıdır. Hər bir hərbi qulluqçu dərk etməlidir ki, o öz vəzifə borcunu vicdanla yerinə yetirməklə, döyüş və ictimai-siyasi hazırlıq dərslərində, təlimlərdə hərbi biliklərə dərindən yiyələnməklə, mənəvi-psixoloji və fiziki hazırlığını artırmaqla, intizamlı olmaqla özünü Vətəninin müdafiəsi üçün hazırlayır.

***Qeyd:** Hər bir hərbi hissənin öz təyinatına görə döyüş tapşırıqları var. Bu tapşırıqları yerinə yetirmək üçün hissə və bölmələr kifayət qədər müasir texnika və silahlara, sursata malikdirlər. İctimai-siyasi hazırlıq sistemində öyrənilən bu mövzuda hərbi qulluqçuların onlara həvalə olunmuş döyüş texnikasından, digər texnikadan və silahlardan bacarıqla istifadə etmələri üçün öz biliklərini, bacarıqlarını və vərdişlərini daha da artırması, Azərbaycan xalqı və dövləti qarşısında Vətənin müdafiəsi, Azərbaycan dövlətinin mənafeyini qorumağı, onun nüfuzunun və qüdrətinin möhkəmlənməsinə səy göstərmək məsuliyyətlərini şüurlu surətdə dərk etmələri izah edilməlidir.*

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

# Tələbələrin Hərbi Hava Qüvvələrinin Hava Təlim Komandanlığına ekskursiyası

*Dünya hərb mütəxəssislərinin araşdırdığı Vətən müharibəsi və müasir konfliktlərin təhlilinin nəticələri göstərir ki, ümumqoşun döyüşünün uğurlu nəticəsi Hərbi Hava Qüvvələrinin müvəffəqiyyətli fəaliyyətindən çox asılıdır. Hərbi Hava Qüvvələrinin müvəffəqiyyətli fəaliyyətinin və arsenalında olan müasir silahların idarə edilməsinin təməli isə bilikli, mənəviyyatlı, Vətənini sevən mütəxəssislərdən asılıdır.*



Belə mütəxəssislərin hazırlanmasında hərbi elm və təhsil sisteminin müstəsna əhəmiyyəti vardır. Hər bir dövlətin təhlükəsizliyi xüsusi strateji fəaliyyət sahəsi olmaqla yanaşı, həm də sistemləşdirilmiş bilik, bacarıq və vərdişlərin mərhələlər üzrə fasiləsiz mənimsənilməsini təmin edən təlim və tərbiyə prosesidir.

Müzəffər Ali Baş Komandanın sərkərdəliyi ilə rəşadətli Azərbaycan Ordusunun qazandığı möhtəşəm Qələbədən sonra hərbi təhsil sistemində NATO standartlarına uyğunlaşma istiqamətində islahatların keçirilməsinə başlanıldı. Qabaqcıl NATO dövlətlərinin ordularının praktikasına əsaslanaraq Hərbi Hava Qüvvələrinin tabeliyində Hava Təlim Komandanlığı yaradıldı.

Bu günlərdə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Peşə təhsili Agentliyinin Aviasiya və Avtomobil Nəqliyyatı üzrə Bakı Dövlət Peşə Təhsili Mərkəzinin "Planer və mühərrik üzrə mexanik" və "Uçan aparatların cihaz avadanlıqları üzrə elektromexanik" ixtisasında təhsil alan tələbələr aviasiya texnikalarına əyani baxış və qabarit maketlərlə yaxından tanış olmaq üçün Hava Təlim Komandanlığına ekskursiya etdilər.

Öncə komandanlığın fəaliyyəti haqqında məlumat verən polkovnik-leytenant Elnur Məmmədov bildirdi ki, Hava Təlim Komandanlığı Hərbi Hava Qüvvələrinin hərbi qulluqçularının peşə hazırlığı səviyyəsinin yüksəldilməsi və təkmilləşdirilməsini, daim dəyişən və yenilənən şəraitə uyğunlaşmasını təmin edən idarəetmə orqanıdır. Tabeliyndə olan Hərbi Hava Qüvvələrinin Təlim Tədris Mərkəzi və Uçuş Hazırlığı Təlim Mərkəzi Hərbi Hava Qüvvələrinə Aviasiya və Hava Hücumundan Müdafiə ixtisası üzrə kadrların hazırlanmasını həyata keçirir.

Zabit Elnur Məmmədov vurğuladı ki, Hava Təlim Komandanlığında bu ixtisaslı kadrların hazırlanmasında "Zabit ixtisas hazırlığı kursu", "Ehtiyat zabit hazırlığı kursu", "Gizir hazırlığı kursu" və "Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı kursu" fəaliyyət göstərir.





Polkovnik-leytenant E.Məmmədov, həmçinin qeyd etdi ki, Hava Təlim Komandanlığında hərbi elm və təhsil sisteminin əsas məqsədi Azərbaycan xalqı və dövləti qarşısında öz məsuliyyətini dərk edən, Vətəninə və xalqına sadiq olan, xalqının milli-mənəvi dəyərlərinə və demokratik prinsiplərinə, insan hüquqlarına və azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil və yaradıcı düşünən hərbi qulluqçuların yetişdirilməsidir. Milli-mənəvi və ümumbəşəri dəyərləri qoruyan və inkişaf etdirən, geniş dünya görüşünə malik olan, təşəbbüs və yenilikləri qiymətləndirməyi bacaran, nəzəri və praktiki biliklərə yiyələnən, müasir təfəkkürlü, silah və hərbi texnikanı mükəmməl bilən mütəxəssis kadrların hazırlanmasıdır. Sistemləşdirilmiş bilik, bacarıq və vərdişlərin mənimsənilməsini və ixtisasının daima artırılmasını təmin edən, Silahlı Qüvvələrin döyüş hazırlığının və ümumilikdə dövlətin müdafiə qabiliyyətinin artırılması sahəsində səy göstərən hərbi qulluqçuların hazırlanmasıdır.

Polkovnik-leytenant Elnur Məmmədov, eyni zamanda, elm və texnikanın, həmçinin hava məkanı tələblərinin sürətlə dəyişdiyi bu dövrdə Hava Təlim Komandanlığı gələcək perspektivini, elm və təhsil sisteminin istiqamətlərindən də danışdı. Bildirdi ki, elm və texnologiyanın əsas istehsal qüvvəsi, istedadlı gəncləri əsas resurs, innovasiyaları isə əsas stimul (təkan) hesab edir. Hava Təlim Komandanlığı müstəqil, sistemli və innovativ məntiqi təfəkkürə malik Aviasiya və Hava Hücumundan Müdafiə mütəxəssisləri yetişdirməyi hədəfləyir. Biz gələcək hava üstünlüyü konsepsiyasını dərk etməyə və gələcəyin mürəkkəb texnologi hava məkanını mənimsəməyə qadir olan yeni tip komandirlər hazırlamağa çalışırıq. Süni intellekt, hipersəs sürəti və kvant hesablamasını əsas hava texnologiyasının bir hissəsi kimi hesab edərək gələcək hava döyüş sahəsi və hava məkanının texnologiyası haqqında aydın təsəvvürlərə malik mütəxəssislərinin hazırlanmasına çalışırıq.

Ekskursiya zamanı tələbələr aviasiya texnikaları və qabarit maketlərlə yaxından tanış oldular.

Sonda təşkil olunan ekskursiyaların əhəmiyyətindən söz açan zabit qeyd etdi ki, Hərbi Hava Qüvvələrinin mütəxəssislərini hazırkı dövrün tələblərinə uyğunlaşdırmağı və gələcək texnologiyaları mənimsəməyə biləcəkləri nümayiş etdirməyə çalışırıq.

Tələbələr ekskursiya barədə fikirlərini bölüşərkən bu tanışlığın onların biliklərini zənginləşdirmək baxımından səmərəli olduğunu qeyd etdilər.

**Kapitan
Günay TAĞIYEVA
"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Husilər Qırmızı dənizdə ABŞ-ın ticarət gəmisini vurduqlarını bildirir



Yəməndə üsyançı hərəkat olan husilər Qırmızı dənizdə İsrail limanlarına doğru hərəkət edən ABŞ-ın ticarət gəmisini vurduqlarını açıqlayıblar.

"TRT Haber" xəbər verir ki, bu barədə husilərin hərbi sözçüsü Yahya Seri öz sosial media hesabında bildirib.

ABŞ və İngiltərənin hücumlarına cavab verməkdən çəkinməyəcəklərini vurğulayan Seri, Qırmızı dənizdən keçən ABŞ və İngiltərə gəmilərinin onlar üçün qanuni hədəf olduğunu söyləyib.

## Almaniya Ukraynaya yeni hərbi yardım paketi təqdim edib



Almaniya Ukraynaya yeni hərbi yardım paketi təqdim edib.

Bu barədə Almaniya hökuməti xəbər verib.

Yeni hərbi paketə 24 zirehli personal daşıyıcısı, 4 Bandvagn 206 tırtıllı relyef maşını, IRIS-T SLS hava hücumundan müdafiə sistemi üçün raketlər, ehtiyat hissələri olan 1 BIBER körpü qatı, 3 WISENT 1 mina təmizləmə tankı, mina təmizləmə tankları üçün 4 xüsusi qurğu, mindən çox 155 mm-lik artilleriya sursatı, dəniz minalarına qarşı sistem, Satcom videomüşahidə sistemi, sərhəd xidməti üçün 4 avtomobil, 450 qar zənciri, 194 min fərdi qablaşdırılmış nahar daxildir.

Almaniya hökumətində qeyd ediblər ki, yeni yardım paketi ehtiyat hissələri olan 6 Sea King Mk41 çoxməqsədli helikopteri ehtiva edir. Lakin Berlində əlavə edirlər ki, təhlükəsizlik səbəbi ilə hökumət daşınmanın təfərrüatları və bu avadanlığın təhvil verilmə vaxtı barədə danışmaqdan çəkinir.

## Yəməndəki husi hədəflərinə zərbələr endirilib



Birləşmiş Ştatlar və Böyük Britaniya silahlı qüvvələri Yəməndə üsyançı hərəkat olan husi hədəflərinə zərbələr endirib.

Bu barədə husilərə məxsus "Əl-Masirah" telekanalı məlumat yayıb.

Telekanalın məlumatına görə, Səada şəhərinin şimal ətrafı hücuma məruz qalıb. Ölənlər, xəsarət alanlar və dağıntılar barədə məlumat verilmir.

## İsrailin müdafiə naziri yerli sursat istehsalı üçün davamlı olaraq çalışdıqlarını bildirib



İsrailin müdafiə naziri Yoav Qallant yerli sursat istehsalı üçün davamlı olaraq işlərə davam etdiklərini açıqlayıb.

Ölkə televiziyasının 7-ci kanalında yayımlanan xəbərdə Qallantın İsrailin müdafiə şirkəti "Elbit Systems"in Ramat Gan şəhərindəki fabrikini ziyarət etdiyi bildirilib.

İsrailin müdafiə naziri deyib: "Bu müharibədə öyrəndiyimiz ən mühüm dərslərdən biri İsraildə silah və sursat istehsalının vacibliyi idi. Biz bunu böyük ölçüdə artırmağa çalışırıq".

**AZƏRTAC-ın materialları əsasında**

# Kursantlar muzeyləri ziyarət ediblər





*Heydər Əliyev adına Hərbi Liseyin kursantları Naxçıvan şəhərinin Əcəmi seyrəngahında yerləşən "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatun və Açıq Səma Altında Muzey Kompleksində ekskursiyada olublar.*

Kursantlar muxtar respublika ərazisində tapılmış və açıq səma altında nümayiş olunan müxtəlif dövrlərə aid qoç heykəllər, daş kitabələr, müxtəlif daş fiqurlardan ibarət eksponatlara baxıblar. Memar Əcəminin şah əsəri olan Möminə Xatun türbəsi haqqında məlumat verilərkən bildirilib ki, bu abidə XII əsr Azərbaycan memarlıq məktəbinin gözəl incilərindəndir və İslam dünyasında qadın, ana adına ucaldılan abidələrdən sayılır. Kursantlar Naxçıvan şəhərində XVIII əsrdə "Xandikin"də inşa edilən tarix-memarlıq abidəsindəki eksponatlarla da yaxından tanış oldular.

Gələcəyin zabitlərinin diqqətinə çatdırılıb ki, hər il minlərlə insanın, o cümlədən yerli və əcnəbi turistlərin ziyarət etdiyi Atabəylərin yadigarı Möminə Xatun türbəsi, Naxçıvan xanlarının iqamətgahı Xan sarayı, müstəqil Azərbaycan dövlətinin banisi - Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin yaxınlıqdakı abidəsi, ümumilikdə, Əcəmi seyrəngahını hər birimiz üçün dəyərli edir.



Azərbaycanın ən qədim mədəniyyət mərkəzlərindən biri olan Naxçıvanda Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin adını daşıyan hərbi liseydə təhsil alan gələcəyin zabitləri peşəkar, savadlı, dünyagörüşlü və ən əsası da tarixi keçmişimizlə fəxr edən gənclər kimi yetişirlər. Kursantların keçmişdən gələcəyə körpü salan və ulu babalarımızın bizə yadigar qoyduğu abidələrlə tanış olması qeyd olunanlara əyani misaldır.

**Nəriman NƏCƏFOV**
**Naxçıvan Muxtar Respublikası**

# Vətənpərvərlik əsas şərtdir

*Müdafiə nazirinin təsdiq etdiyi tədbirlər planına uyğun olaraq, Azərbaycan Ordusunun şəxsi heyətinin asudə vaxtlarının səmərəli təşkil olunması üçün mədəni-kütləvi tədbirlərin keçirilməsi ənənə halını alıb. Belə tədbirlərin keçirilməsində əsas məqsəd şəxsi heyətin vətənpərvərlik ruhunun daha da artırılması, Vətənə, xalqa sədaqətli vətəndaşların formalaşdırılmasıdır.*

Bu istiqamətdə Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzi də fəaliyyətini davam etdirir. Ölkəmizin ərazi bütövlüyü tam bərpa edildikdən sonra işğaldan azad edilmiş ərazilərdə də hərbi qulluqçuların asudə vaxtlarının səmərəli təşkil olunması məqsədilə Mərkəz tərəfindən silsilə tədbirlər keçirilir.

Mərkəzin əməkdaşları növbəti dəfə Laçın rayonunda yerləşən "N" hərbi hissəsində oldular.



Öncə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Vətənimizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad olundu.

Təbliğat-təşviqat qrupunun üzvləri Naibə Qurbanova, Günel Mehdiyeva müasir Azərbaycan dövlətinin və ordusunun qurucusu Ulu Öndər Heydər Əliyevin Vətənimiz və xalqımız qarşısında misilsiz xidmətlərindən, çoxşaxəli dövlətçilik fəaliyyətindən danışdılar. Bildirdilər ki, müdrik dövlət xadimi öz həyatını doğma Vətəninə, xalqına həsr etmişdi. Onun misilsiz fəaliyyəti nəticəsində Azərbaycan Ordusu yenidən qurulmuş, regionun qüdrətli ordusuna çevrilmişdir. Ölkəmiz Əbədiyaşar Komandanın hakimiyyətə qayıdışından sonra yeni dövrə qədəm qoydu, bütün sahələrdə tərəqqiyə, yüksəlişə nail olundu.

Ulu Öndərin siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev isə xalqın böyük dəstəyi ilə Prezident seçildikdən sonra ölkəmizi yeni dünya nizamında inkişaf etdirərək regionun lider dövlətinə çevirmişdir.

Ərazi bütövlüyü tam bərpa edildikdən sonra həyata keçirilən uğurlu daxili və xarici siyasət sayəsində ölkəmiz iqtisadi, siyasi, hərbi cəhətdən güclü inkişaf etdirilir. İşğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı quruculuq işləri sürətlə davam etdirilir. Soydaşlarımız doğma yurd yerlərinə qayıdırlar. Ölkəmizin hər yerində müstəqilliyin və dövlətçiliyin rəmzi olan üçrəngli bayrağımız qürurla dalğalanır.

"Əsgərə məktub" layihəsi haqqında da şəxsi heyətə ətraflı məlumat verildi. Qeyd olundu ki, ölkəmizin müxtəlif bölgələrində həyata keçirilən layihə ictimaiyyət və hərbi qulluqçular tərəfindən böyük coşqu ilə qarşılanır. Vətəndaşların əsgərə ünvanladığı hədiyyəli məktub vətənpərvərlik mövzusunda keçirilən viktorinanın qalibinə təqdim olundu. "Vətən uğrunda" ansamblının üzvləri Sevinc Nəsibova və Pərviz İsmayılovun ifa etdikləri mahnılar xoş ovqat yaratdı. Xidmətdə fərqlənən əsgərlərə hədiyyələr təqdim olundu.

**Mübariz MUSAYEV**
**"Azərbaycan Ordusu"**

# İdman

## FIDE reytinqi: Teymur Rəcəbov irəliləyib, Nicat Abasov ilk "100-lüy"ə qayıdıb



Beynəlxalq Şahmat Federasiyasının (FIDE) fevral ayı üçün reytinq cədvəli açıqlanıb.

İlk "onluq"da Azərbaycan şahmatçıları yer almayıblar.

Ötən reytinqlə müqayisədə iki pillə geriləyən Şəhriyar Məmmədyarov (2723) 26-cı sırada qərarlaşıb.

Əvəzində Teymur Rəcəbov (2723) 25-ci yerə yüksəlib. Rauf Məmmədov (2651) 88-ci, yenidən "100-lüy"ə dönən Nicat Abasov (2641) 96-cı pilləni tutur.

Siyahıya əvvəlkitək norveçli Maqnus Karlsen (2830) başçılıq edir. ABŞ təmsilçiləri Fabiano Karuana (2804) və Hikaru Nakamura (2788) müvafiq olaraq 2-2-ci yerləri bölüşdürürlər.

Azərbaycanın qadın şahmatçıları arasında Günay Məmmədzadə (2449) 26-cı pillədəki mövqeyini qoruyub. Ülviyyə Fətəliyeva (2384) 65-ci, Gövhər Beydullayeva (2374) 76-cı, Gülnar Məmmədova (2351) 100-cü sırada yer alıb.

## Azərbaycan regionun ən böyük oyun festivalına ev sahibliyi edəcək




Mayın 31-dən iyunun 2-dək Bakıda regionun ən böyük oyun festivalı olan "Game Summit Baku 2024"ün keçirilməsi planlaşdırılır.

Tədbirdə qabaqcıl virtual reallığa böyük diqqət yetiriləcək.

Bundan əlavə, yerli oyun tərtibatçılarının ən son nailiyyətləri haqqında məlumatlar təqdim olunacaq, e-idman üzrə qlobal turnir keçiriləcək.

Festival biznes təşəbbüslərini və e-idmanı əhatə edəcək. Tədbir çərçivəsində böyük konsert proqramı nəzərdə tutulub.

"GameSummit Baku 2024", həmçinin iştirakçıların oyunlar, anime, komikslər və geek mədəniyyətinin digər sahələrindən ilhamlanmış kostyumlarını nümayiş etdirə biləcəkləri "cosplay" müsabiqəsinə ev sahibliyi edəcək.

## Bakıda keçiriləcək "Böyük Dəbilqə" turnirinin rəsmi posteri təqdim olunub




Azərbaycan Cüdo Federasiyası (ACF) Bakıda keçiriləcək "Böyük Dəbilqə" turnirinin rəsmi posterini təqdim edib.

ACF-dən verilən məlumata görə, Milli Gimnastika Arenasında təşkil olunacaq yarışda 60-dan çox ölkədən 400-dən artıq idmançının iştirakı gözlənilir.

"Dünya Cüdo Turu" seriyasına daxil olan "Böyük Dəbilqə" fevralın 16-18-də baş tutacaq.

## MMA döyüşçüsü "CONSTRICTOR Team" sertifikatına layiq görülüb



Azərbaycanın Kikboksinq MMA idmançısı Rüstəm Müslümov və onun məşqçisi Serbiyanın Kula şəhərində Kikboksinq MMA və Jiu Jitsu üzrə keçirilən təlim məşq toplanışında iştirak edib.

İdmançının təlim məşq toplanışında iştirakı tədbirin təşkilatçılarının dəstəyi əsasında baş tutub.

Təlim məşq toplanışında və keçirilən döyüşlərdə Azərbaycanın adını layiqincə təmsil edən Rüstəm Müslümov təşkilatçılar tərəfindən "CONSTRICTOR Team" müvafiq sertifikatla mükafatlandırılıb.

**AZƏRTAC-ın materialları əsasında**

Baş leytenant Əlizadə Eltun Vüqar oğluna məxsus MN № 0057079 nömrəli zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Babayev Elmar Bayram oğluna məxsus AD № 0019935 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

| Baş redaktorun müavini | Telefonlar | Ünvanımız | Növbətçi | Qəzetin hesabı | | |
|---|---|---|---|---|---|---|
| mayor Məhəmməd NƏSİRLİ | Baş redaktor: (012) 510-71-97 (faks); Baş redaktorun müavini: (012) 510-64-27; Məsul katib: (012) 510-71-98; Məktublar şöbəsi: (012) 510-64-28. | Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi | kapitan Orxan HÜSEYNLİ | Nərimanov Rayon Xəzinədarlığı Kod: 200189 VÖEN: 1500428611 | Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır. Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz. | Lisenziya № 361 Sifariş № 28 Nüsxə 4646 |